**Nəcəfxanlı, Ə**. Zəngilana bayraq sancan igid / Əli Nəcəfxanlı // Xalq qəzeti. - 2025. - 7 oktyabr. - **№ 215**. - S. 13.

**Zəfər salnaməsini qanı ilə yazanlardan Azər Yusifli 8 il idi ki, Dövlət Sərhəd Xidmətinin (DSX) Cəlilabaddakı hərbi hissəsində müddətdən artıq hərbi xidmət keçirdi. Vətən müharibəsi başlananda o baş gizir olduğu Çevik Hərəkət Dəstəsinin tərkibində cəbhə xəttinə göndərildi. Azər Yusifli "Qan yaddaşı"mızın "Zəfər yaddaşı"na çevrilməsində müstəsna rol oynadı.**

O hələ müharibədən 2 ay əvvəl düşmən təxribatının törədildiyi Tovuz rayonuna ezam olunmuşdu. Orada kəşfiyyatçı kimi hünər göstərmiş, Ermənistana keçərək, xüsusi əhəmiyyətli əraziləri və obyektləri tədqiq etmişdi.

İkinci Qarabağ savaşında Azər və silahdaşları Cəbrayılın Arazboyu yaşayış məntəqələrinin və Xudafərin körpülərinin işğaldan azad olunmasında yaxından iştirak etdilər. Sərhədçi hərbi qulluqçular daha sonra Zəngilan istiqamətində irəlilədilər. Uğurlu əməliyyatlar sayəsində qısa müddətdə rayonun bir çox kəndi düşməndən alındı. Oktyabrın 19-dan 20-nə keçən gecə isə Zəngilan şəhəri uğrunda döyüşlər başlandı və tezliklə şəhər işğaldan azad olundu. Səhər saat 4 radələrində şəhərə 27 ildən sonra Azərbaycan bayrağını sancmaq şərəfi baş gizir Azər Yusifliyə nəsib oldu. Bir gün sonra isə igid Vətən oğlu elə oradaca şəhadətə ucaldı...

Azər Nazim oğlu Yusifli Ağstafa rayonun yetirməsidir. 1994-cü il mart ayının 28-də Böyük Kəsik kəndində ziyalı ailəsində dünyaya göz açıb. Onun ibtidai sinif müəllimi elə öz anası Yeganə Məmmədova olub. Ana laylası ilə pərvəriş tapan vətənpərvərlik duyğuları, Yeganə müəllimin əlindən tutub yazdırdığı "ana", "Vətən", "Azərbaycan" sözləri, atası Nazim kişidən və məktəbdə digər müəllimlərindən aldığı tərbiyə sayəsində Azərin vətən sevgisi daha da güclənib.

Milli Ordu sıralarında həqiqi hərbi xidmətdən sonra bir gün mərhum həmyerlisi, şair Şaiq Vəlinin şeirinə rast gəlir. Həmin poetik nümunənin misraları onun gələcək həyat yolunun müəyyənləşməsinə vəsilə olur:

**Daş, beton dirəklər nəyə gərəkdir,**
**Qollarım bir sərhəd dirəyi ikən?!**

Beləliklə, ömürlük Vətən keşikçisi olmaq istəyən Azər DSX-ya qəbul edilir. Nümunəvi xidməti ilə fərqlənir. Layiq görüldüyü "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" və "Hərbi xdmətdə fərqlənməyə görə" medallarını bayram günlərində fəxrlə döşünə taxır.

Vətən müharibəsi Azərin taleyində həlledici rol oynayıb. Cəbrayılın Mahmudlu, Soltanlı, Əmirvarlı, Göyərçin Veysəlli, Keyxalı, Maşanlı və Hasanlı kəndlərində, Zəngilanın isə 16-dan çox yaşayış məntəqəsində onun silinməz ayaq izləri var.

Döyüş yoldaşlarının Zəngilanda çəkdiyi videoda Azər erməni məktəb binasına daxil olur. Hay bayrağının və qondarma qəhrəman–terrorçu Monte Melkonyanın şəkillərini divardan qoparıb ayaq altına atır. Sonra zaman-zaman türkün tarixini və coğrafiyasını mənimsəyən oğru millətin

“simvol”larının sərgiləndiyi digər kağız-kuğuzu cırıb tullayır. Hayların xülyalarında, miflərində yaratdıqları “böyük Ermənistan” xəritəsinin, “tarixi” abidələrin şəkilləri, beləcə, layiq olduğu qiymətini alır. Döyüş yoldaşlarının sözlərinə görə, Azər hər erməni öldürdükcə “Bu da Xocalının hayıfı!” – deyirdi.

Dövlət başçımızın sərəncamı ilə “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş Azər Yusifli ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Zəngilanın azad olunmasına görə” medalları ilə də təltif edilib.

Oktyabrın 22-də doğma kəndi Böyük Kəsikdə onunla vida görüşünə bütün el-oba gəlmişdi. Aşıq Veysəlin dili ilə “Mənim sadiq yarım qara torpaqdır”, – deyən qəhrəman öz nəşi ilə Vətən torpağını bir ovuc da artırıb. Vaxtilə oxuduğu tam orta məktəb indi onun adını daşıyır.